23 aprel -“Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü” və 26 aprel - “Beynəlxalq Əqli Mülkiyyət Günü” münasibəti ilə 2009-cu ildə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi tərəfindən keçirilmiş tədbirlər haqqında

**M Ə L U M A T**

Əvvəlki illərdə olduğu kimi bu il də 23 Aprel-“Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü” və 26 Aprel-“Beynəlxalq Əqli Mülkiyyət Günü” Azərbaycanda geniş şəkildə qeyd edilmişdir. ÜƏMT-nin Baş direktoru Frensis Qarrinin “Beynəlxalq Əqli Mülkiyyət Günü” ilə bağlı müraciətini dəstəkləyərək bu ilki tədbirlərdə ***yaşıl innovasiyaların müasir əqli mülkiyyət sistemində roluna*** xüsusi əhəmiyyət verilmişdir. Cənab F.Qarrinin müraciəti Azərbaycan dilinə tərcümə edilərək, geniş şəkildə yayılmışdır.

“Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü” və “Beynəlxalq Əqli Mülkiyyət Günü”nün yüksək səviyyədə qeyd edilməsi məqsədi ilə Müəllif Hüquqları Agentliyi tərəfindən əvvəlcədən xüsusi tədbirlər Planı hazırlanmış və təsdiq edilmişdir. Həmin Plana uyğun olaraq Nazirlər Kabinetinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatı, Milli Təhlükəsizlik Nazirliliyinin, Vergilər Nazirliliyinin, Mədəniyyət və Turizm Nazirliliyinin, Rabitə və İnformasiya Texnologiyaları Nazirliliyinin, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Milli Elmlər Akademiyasının və digər dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, müəlliflər və digər hüquq sahiblərinin, əqli mülkiyyətə əsaslanan sənaye sahələri təmsilçilərinin, istifadəçi təşkilatların və media nümayəndələrinin iştirakı ilə konfrans, seminar, dəyirmi masa və görüşlər keçirilmişdir.

Bu sıradan ilk tədbir olan “Azərbaycan folklorunun və ənənəvi biliklərin qorunması: erməni plagiatçılığı” mövzusunda seminar aprelin 22-də keçirilmişdir. Seminarda Nazirlər Kabinetinin, nazirliklərin, Azərbaycan Respublikasının bir çox hökumət və ictimai təşkilatlarının nümayəndələri, yaradıcı şəxslər iştirak etmiş və müzakirələrdə çıxış etmişlər. Xüsusi olaraq seminarla əlaqədar Müəllif Hüquqları Agentliyi Azərbaycanın mədəni ənənələrinin ermənilər tərəfindən mənimsənilməsi haqqında tanınmış erməni xadimlərinin etirafları, o cümlədən xarici alimlərin bu barədə fikir və düşüncələri toplanmış “Gəldim, gördüm,... mənimsədim” adlı kitabça da nəşr etmişdir.

Aprelin 24-də keçirilmiş növbəti tədbir Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatı ilə birgə təşkil edilmiş “Əqli mülkiyyət hüquqlarının insan hüquqları sistemində yeri” mövzusunda dəyirmi masa olmuşdur. Bir sıra hökumət qurumlarının, o cümlədən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Vergilər Nazirliyinin və bir sıra ictimai təşkilatların nümayəndələrinin iştirakı ilə mövzu ətrafında geniş müzakirələr aparılmışdır.

Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü və Beynəlxalq Əqli Mülkiyyət Günü ilə əlaqədar sonuncu geniş tədbir – “İnformasiya kommunikasiya texnologiyaları (İKT) obyektləri və müəlliflik hüququ” mövzusunda konfrans aprelin 27-də keçirilmişdir. “Microsoft” şirkətinin Azərbaycan nümayəndəliyi ilə birgə təşkil

olunmuş bu tədbirdə informasiya kommunikasiya texnologiyalarının müasir cəmiyyətin inkişafında rolu və onların əksəriyyətinin müəlliflik hüququnun obyektləri kimi qorunması məsələləri geniş müzakirə olunmuşdur. Konfransda Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin, "Microsoft" şirkətinin, elmi və ictimai təşkilatların nümayəndələri tərəfindən informasiya cəmiyyətinin inkişafının yeni mərhələsi, piratçılığın Azərbaycanda informasiya texnologiyalarının inkişafına yaratdığı problemlər barədə fikirlər söylənmişdir.

Keçirilən tədbirlər kütləvi informasiya vasitələri ilə geniş şəkildə işıqlandırılmış, o cümlədən çoxsaylı qəzet və jurnal məqalələri dərc edilmiş, radio və televiziya kanallarında reportajlar verilmişdir. Həmin materiallarda bu əlamətdar günlərin elan olunmasının əhəmiyyəti, ÜƏMT və YUNESKO-nun mədəniyyətin və əqli yaradıcılığın inkişafı üçün gördüyü çoxşaxəli işlər, yaşıl innovasiyaların müasir əqli mülkiyyət sisteminin inkişafında rolu öz əksini geniş şəkildə tapmışdır.